**Azərbaycanda bələdiyyələrin yaranması, formalaşdırılması və hüquqi bazası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ümummilli liderin fəaliyyəti dövründə – 1995-ci il noyabrın 12-də qəbul edilmiş yeni Konstitusiyada ilk dəfə olaraq bələdiyyələrin hüquqi statusu qanun çərçivəsində müəyyənləşdirildi. Demokratiyanın həyata keçirilməsinə zəmin yaradan və siyasi-iqtisadi cəhətdən müstəsna əhəmiyyət kəsb edən yerli özünüidarə orqanlarının – bələdiyyələrin yaradılmasının Konstitusiyada öz əksini tapması dövlət-vətəndaş münasibətlərində yeni mərhələnin əsasını qoydu. Dekabrın 23-də keçiriləcək demokratik və şəffaf bələdiyyə seçkilərinin yerli özünüidarətmə hakimiyyətinin günün tələbləri səviyyəsində güclənməsinə şərait yaradacağı da şübhə doğurmur.**




# Bələdiyyə seçkiləri yerli idarəetmə demokratiyasını daha da gücləndirəcək

Azərbaycanda növbəti bələdiyyə seçkiləri Mərkəzi Seçki Komissiyasının (MSK) qərarı ilə bu il dekabrın 23-də keçiriləcək. Ölkəmizin ictimai-siyasi həyatında əhəmiyyətli yer tutan bu seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün zəruri addımlar atılmışdır. Seçkilərin nəticələrinə əsasən, 15 156 vətəndaş 1606 yerli özünüidarə orqanlarında təmsil olunacaq, regionların idarə olunmasında, sosial və iqtisadi problemlərinin həllində, bütünlükdə, inkişafın təmin edilməsi prosesində yaxından iştirak edəcək.

Ümumiyyətlə, ötən illər ərzində Azərbaycanda yerli özünüidarəetmə orqanları özünəməxsus inkişaf yolu keçərək ölkəmizdə aparılan hərtərəfli quruculuq işlərində, o cümlədən sosial, iqtisadi, ekoloji və digər layihələrin, çoxsaylı regional proqramların reallaşmasında mühüm rol oynamışlar. Konstitusiyanın qəbulundan sonra ilk bələdiyyə seçkiləri keçirilənədək yerli özünüidarəetmə ilə bağlı zəruri hüquqi baza formalaşdırılmış, bələdiyyə seçkilərinin qaydalarını, bələdiyyələrin, bələdiyyə üzvlərinin və qulluqçularının statusunu və fəaliyyət prinsiplərini, yerli özünüidarənin maliyyəsinin əsaslarını, bələdiyyə əmlakının hüquqi rejimini və bir sıra başqa mühüm məsələləri tənzimləyən qanunvericilik aktları qəbul edilmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, 1999-cu ildə ilk dəfə olaraq demokratik və şəffaf şəkildə keçirilmiş bələdiyyə seçkiləri nəticəsində yerli özünüidarəetmə orqanlarını formalaşdırmış Azərbaycan 25 dekabr 2001-ci il tarixdə "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına qoşulmuşdur.

Artıq ölkədə tam azad, şəffaf və demokratik seçkilər keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Bu, Azərbaycan hökumətinin seçkiləri azad, şəffaf və demokratik keçirmək niyyətini bir daha sübut edir. Azərbaycanda seçkilərin keçirilməsində artıq böyük təcrübə var və ən qabaqcıl təcrübələr öyrənilərək tətbiq olunur. Seçki prosesi beynəlxalq standartlara uyğun şəkildə təşkil olunmuşdur. İldən-ilə daha da təkmilləşən seçkilərin keçirilməsi prosesində şəffaflıq tam şəkildə təmin edilir və vətəndaşlar azad, sərbəst şəkildə öz iradələrini ifadə edirlər.

Seçicilərlə maarifləndirmə işlərinin aparılması, seçki hüquqları ilə bağlı çoxsaylı sənəd nümunələrinin hazırlanması, seçici siyahılarının dəqiqləşdirilməsi ilə əlaqədar yeni üsulların tətbiq edilməsi də ölkəmizdə seçki sisteminin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdəndir. Azərbaycanın inkişaf edən seçki sistemində demokratik ab-havanın, şəffaflığın təmin edilməsi üçün müasir informasiya texnologiyaları da tətbiq olunur. Belə ki, regionda ilk dəfə məhz Azərbaycanda seçkinin gedişatının internet vasitəsilə birbaşa izlənilməsi sistemi yaradılmışdır.

Bundan başqa, Azərbaycanda dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkiləri ilə bağlı dairə seçki komissiyalarına çip oxuyan qurğuların paylanılması qarşıdan gələn 3 gün ərzində başa çatdırılacaq. MSK-nın sədr müavini Rövzət Qasımovun sözlərinə görə, proqram təminatı ilə birgə çip oxuyan qurğular tam olaraq bütün dairə seçki komissiyalarına paylanılacaq və bundan sonra dairə seçki komissiyaları bu qurğuları seçki məntəqələrinə paylayacaq. Artıq qurğularla bağlı bütün sınaqlar həyata keçirilmişdir və bələdiyyə seçkilərinə qədər bütün seçki məntəqələri çip oxuyan qurğularla təmin olunacaq. Azərbaycan hakimiyyətinin aşkarlığın daha çox təmin edilməsi üçün bütün bu təşəbbüslərə, yeniliklərə belə yüksək həssaslıqla yanaşması, əlbəttə, bütün dünyada alqışlanılır.

Ötən seçkilərdə olduğu kimi, dekabrın 23-də keçiriləcək seçkilərə də maraq böyükdür. Yerli özünüidarəetmə orqanlarında təmsil olunmaq istəyən namizədlərin sayının çox olması belə deməyə əsas verir. Bundan başqa, namizədlərin 30 faizdən çoxu qadındır və keçirilən seçkilərdə qadın namizədlərin sayı getdikcə artır. Eləcə də, yaşı 20-dən aşağı 300-dən çox namizəd qeydə alınmışdır. Bələdiyyə seçkiləri ilə bağlı 51 737 nəfər müşahidəçi qeydə alınmış və onlardan 1511-i MSK-da qeydiyyatdan keçmişdir. Bu, kifayət qədər böyük bir göstəricidir və bələdiyyə seçkilərinə marağın böyük olduğunu təsdiqləyir.

Bir çox partiyalar yerli özünüidarəetmə orqanlarında təmsil olunmaq üçün fəal iştirak edirlər. Lakin bəzi partiyalar birbaşa funksiyalarını yerinə yetirməyə can atmırlar. Məlumdur ki, bələdiyyələrin ərazisində əhaliyə xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, yerli əhəmiyyətli problemlərin həllinə dəstək verilməsi istənilən siyasi partiyanın fəaliyyət istiqamətlərini təşkil etməlidir. Heç kimə sirr deyil ki, hər hansı bir partiya yalnız seçkilər vasitəsilə ölkənin ictimai və siyasi həyatında iştirak etmək istəyini reallaşdıra bilər. Buna görə də, bələdiyyə seçkilərində iştirak etməyən hər hansı siyasi partiyanın mövcudluğu sual altına düşür və cəmiyyətin siyasi sistemində normal fəaliyyət göstərmək imkanlarından məhrum olur.

Hazırda ölkəmizdə seçkiqabağı mühit normaldır, ictimai-siyasi sabitlik, demokratik və şəffaf seçki sistemi mövcuddur. Azərbaycanın beynəlxalq standartlara cavab verən seçki qanunvericiliyi var və bu Seçki Məcəlləsi ilə azad, şəffaf və demokratik seçkilər keçirmək tam mümkündür. Mövcud siyasi reallığa tərs münasib fikirlər və iddialar bəzi siyasi partiyaların gücsüzlüyünün gizlədilməsinə hesablanmışdır.

Ümumiyyətlə, hər bir dövlətdə seçkilər onun imicinə çox ciddi təsir göstərir. Bu baxımdan Azərbaycan dövləti və ictimaiyyəti hər zaman seçkilərə böyük önəm verir. Mütəxəssislərin sözlərinə görə, ölkə Konstitusiyası, Seçki Məcəlləsi və bir sıra digər normativ hüquqi aktlar, həmçinin MSK-da qəbul olunan qərarlar seçki prosesinin qanunlar çərçivəsində şəffaf keçirilməsinin təmin olunmasına yönəldilmişdir. Müasir texnologiyaların imkanlarından istifadə etməklə seçki prosesinin izlənməsi və digər mütərəqqi addımlar da təqdirəlayiq hal kimi alqışlanır. Bundan əlavə, azad və ədalətli seçkilərin keçirilməsi həmişə dövlət rəhbərliyinin prinsipial mövqeyi olmuşdur.

Prezident İlham Əliyev seçkilərin demokratik, azad və şəffaf şəkildə keçirilməsi məsələsini həmişə diqqət mərkəzində saxlayır. Ötən seçki proseslərinin nəticələri bir daha nümayiş etdirmişdi ki, seçki qanunvericiliyinin və praktikasının beynəlxalq standartlara tam uyğun olması istiqamətində Azərbaycan hakimiyyəti tərəfindən bütün zəruri addımlar atılır. Seçkilərin azad, şəffaf və demokratik şəraitdə keçirilməsini nüfuzlu beynəlxalq müşahidəçilər də bildirirlər. Azərbaycan xalqının iradəsini əks etdirmiş bütün seçkilər ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesinin artıq dönməz xarakter aldığını bir daha təsdiqləmişdir. Bu baxımdan 23 dekabr bələdiyyə seçkilərinin də yerli idarəetmə demokratiyasının daha da güclənməsinə və inkişaf etməsinə öz güclü töhvəsini verəcəyinə inam böyükdür.

***"Xalq qəzeti"***